MUSTAFAYEVA G.
*GDU*

# ERMƏNISTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ DÖVRÜNDƏ ERMƏNİ ƏSARƏTİNDƏN XİLAS EDİLMİŞ VƏTƏNDAŞLARIN SOSİAL REABİLİTASİYASI

Qeyd edilən münaqişə dövründə Azərbaycanda əsirlərin işi üzrə fəaliyyətin dövlət səviyyəsində təşkili günün vacib vəzifəsinə çevrilmişdi. Hər şeydən qabaq əsir və girovluqda olanların taleyi, onların gözü yolda qalan qohumlarının, bütövlükdə xalqın narahatçılığı bunu tələb edirdi. Erməni əlində olub, pərakəndə qaydada müxtəlif yollarla Vətənə qaytarılmış şəxslərin dövlətçilik mənafeyi baxımından bəzilərinin gələcək təhlükəlilik ehtimalı, onların ermənilər tərəfindən yoluxucu xəstəliklərə mübtəla edilməsi, əsir və girovların, eləcə də azad olunanların dəqiq uçotunun aparılması bunu tələb edirdi.

Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 1993-cü il tarixli 282 №-li sərəncamı ilə girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası yaradıldı. Komissiya bir müavin və 22 üzvdən ibarət idi. Girov götürülən şəxslərin siyahısının tərtib edilməsi, axtarılması, düşmən əsarətində saxlandıqları yerlərin müəyyən edilməsi və Vətənə qaytarılması məqsədi ilə müvafiq dövlət orqanları və ictimai təşkilatlarla əlaqəli tədbirlərin həyata keçirilməsi, girovların məsələsinə dair təkliflərin hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlığın təmin edilməsi Dövlət Komissiyasına həvalə olundu. Respublikanın müvafiq nazirliklərinə və bütün rayonların icra hakimiyyəti başçılarına tapşırıldı ki, girov götürülmüş şəxslərlə bağlı onların sərəncamında olan bütün məlumatları Dövlət Komissiyasına təqdim etsinlər.

Respublika Ali İcra hakimiyyətinin rayon rəhbərliklərinə və hərbi komissarliqlarına göndərdiyi 19 yanvar 1993-cü il tarixli 3/109 №-li sorğu məktubunda əsirlikdən və ya girovluqdan müxtəlif yollarla azad edilmiş şəxslərin ünvanı, Vətənə qayıtma vaxtı, məşğuliyyəti, hazırda yaşadığı yer haqqında məlumatların qısa müddətdə dəqiqləşdirilib Dövlət Komissiyasına göndərilməsi tapşırıldı. Göndərilən məlumatlar əsasında respublika üzrə müxtəlif yollarla əsirlikdən və girovluqdan qayıdanlar haqqında məlumat toplandı. Əsir və girovluqdan qayıtmış insanların reabilitasiyası istiqamətində həyata keçirilən fəaliyyətin mərkəzləşdirilməsi məqsədi ilə Qobustanda xüsusi təcridxana yaradıldı. 1993-cü ilin dekabr ayının 1-nə olan məlumata görə əsir va girovluqdan qaytarılmış 146 nəfərin adı, ünvanı dəqiqləşdirildi. Onların xeyli hissəsi İşçi qrupu tərəfindən dinlənilərək filtrasiyadan keçirildi. Ümumiyyətlə 1993-cü ilin sonuna qədər erməni əsarətindən azad olunanların 163 nəfəri dindirilməyə cəlb olundu. 1993-cü ilin sonuna qədər fərdi qaydada dəyişdirilənlərin sayı təqribən 400-ə yaxın olduğu halda, Milli Təhlükəsizlik orqanları 29 dekabr 1993-cü il tarixə qədər cəmi 224 nəfəri müəyyən edə bilmişdi. Onların hamısı hələ dindirmə əməliyyatına cəlb edilməmişdi. Respublikanın məruz qaldığı bir milyondan artıq qaçqının dəqiq qeydiyyatının aparılmadığı bir şəraitdə müxtəlif yollarla əsirlikdən qaçanların, fərdi yolla azad olunanların uçotunun aparılması çətinləşirdi. Vətənə qayıdanların bəzisi ermənilər tərəfindən yoluxucu xəstəliyə məruz qoyulduğu halda, filtrasiyaya cəlb edilmədən, elə dəyişilmə rayonlarındaca evlərinə buraxılmışdı. Müxtəlif yollarla əsir və girovluqdan azad olunmuş bəzi vətəndaşlar filtrasiyaya cəlb olunmaq məqsədi ilə axtarılsa da 20 dekabr 1993-cü ilə qədərki müddətdə tapılmamışdı. Görülən tədbirlər sayəsində azad olunanlardan böyük bir tərkib tapılıb söhbətə, bəziləri isə filtrasiyaya cəlb olundu. 16-18 yaşında uşaqlardan tutmuş 60-70 yaşınadək əsir və girovluqdan qayıdan adamlar filtrasiyaya cəlb edildiyi halda,

filtrasiyası daha çox vacib olan şəxslər sərbəst buraxılmışdılar. Filtrasiyadan kənarda qalma halları Azərbaycanın mühüm dövlətçilik mənafeyi üçün gələcəkdə real təhlükə də yarada bilərdi. Belə ki, erməni əlində olub qayıtmış vətəndaşların bir qismində sonradan keçirilmiş müayinə zamanı ciddi yoluxucu xəstəliklərə məruz qalan, əsirlikdə olarkən erməni xüsusi xidmət orqanları ilə əməkdaşlıqda şübhəli bilinənlər aydınlaşdırılmışdı. Məhz aparılan gərgin axtarış sayəsində Qorxmaz İmanov, Səfər Sadıqov, Yusif Şərifov və digər qiymətli məlumat daşıyıcaları və əməliyyat əhəmiyyəti kəsb edə biləcək, lakin diqqətdən kənarda qalmış şəxslər aydınlaşdırılmış, barələrində müvafiq orqanlara məlumat verilmişdi.Təəssüflə qeyd edək ki, AXCP-Müsavat cütlüyünün səriştəsizliyinin nəticəsi idi ki, əsir və girovluqdan azad olunmuş Azərbaycan vətəndaşları Vətəndə reabilitasiya dövründə bir sıra çətinliklərlə də rastlaşırdı. Vətyənə qayıdanların xüsusi təcridxanada yerləşdirilməsi, dindirilməsi, həkim müayinəsindən keçirilməsi ilə əlaqədar tədbirlər görülsə də, təəssüflə qeyd etmək lazımdır ki, taleyinə əsirlik payı düşmüş bu vətəndaşlar vacib sosial reabilitasiyadan keçirilmək məqsədi ilə xüsusi qayğı ilə əhatə olunan ixtisaslaşdırılmış müəssisələrə toplanmalı olduğu halda, erməni milliyyətli saxlanılanlarla bir dam altına, 3 nömrəli Qobustan xüsusi təcridxanasında cəmləşdirilmişdilər.

Əsir və girovluqdan azad edilmiş şəxslərin sosial və tibbi reabilitasiyası zamanı müəyyən çətinlik və əziyyətlə üzləşən vətəndaşlardan 2001-ci il ərzində alınan 59 ədəd şikayət məktubu və müraciət fikrimizi təsdiq edir. Məsələn, girovluqdan qayıtmış qoca və qadınlar təcridxanada ərzaq normasının onlara azlıq etməsindən şikayətlənirdilər. Qocalar özlərinə xidmət etmək imkanında olmadıqlarından gileylənirdilər.Otaqların qızdırılmasının kifayət qədər normal olmaması soyuq şəraitdə onların keçirdiyi həyatın ağırlığını göstərirdi. 14 yaşlı Nuxuyev Rövşən Arif oğlunun təcridxanada saxlanması onun sağlamlığına və tərbiyəsinə təbii ki, mənfi təsir etməyə bilməzdi. Təcridxananın qapısına hər gün qohumları ilə görüşə toplanan insanlar, bununla son dərəcə vacib olan xidməti fəaliyyətin həyata keçirilməsinə maneçilik törədirdi. Həmin müraciətlər Komissiya üzvləri Sərdar Kərimov, Şəmsəddin Xanbabayev, Əli Kazımov, Sahib Rəhimov, Həsən Sarıyev və digərləri tərəfindən diqqətlə yerində öyrənilmiş və barəsində tədbir görülmüşdür.

1997-ci ilə qədər filtrasiyaya cəlb edilmək üçün 18-65 yaş həddinin qanuniləşdirilməməsi vəziyyətin nizama salınmasına maneçilik törədirdi. Yalnız 1997-ci ildən etibarən əsirlikdən qayıdanların filtrasiya məntəqəsində saxlanılmasından imtina edilmiş, əsarətdən qayıdanların Milli Təhlükəsizlik Nazirliyinin hospitalında yerləşdirilməsi, tibbi müayinədən keçirilməsi, ehtiyacı olanlara təcili yardım göstərilməsi, təqribən 20-25 gün ərzində onlarla müvafiq söhbətlər aparılması tətbiq olunmağa başladı. Həmin ildən 2001-ci ilə qədərki müddətdə canlandırılmış axtarış-araşdırma işlərinin, xüsusilə Xocalı hadisələri iştirakçıları və oradan girov götürülüb sonradan müxtəlif yollarla azad edilmiş vətəndaşlarla aparılan işin nəticəsində neçə illər ərzində filtrasiyadan kənarda qalmış 100 nəfərdən yuxarı şəxs aşkarlanaraq barələrindəki məlumatlar nazirliyin aidiyyəti şöbəsinə təqdim edilmişdir. Tək bir epizod üzrə 80 nəfərdən 60 nəfəri barədə filtrasiya işi açılmışdır. Əsirlikdən azad olunmuşlardan alınmış arayışlar əsirlikdən qayıdanların siyahısı ilə tutuşdurulmuş, əldə olunmuş yeni məlumatlar əks olunduğu sənədin nömrəsi qeyd olunmaqla kompyuterin yaddaşına köçürülmüşdür. Girovluqdan qayıtmış iki nəfərlə aidiyyəti üzrə iş aparılmış, arayışlar tərtib edilmiş və onların ifadələri video-lentin yaddaşına köçürülmüşdür. Video arxivin təşkili məqsədi ilə aparılan çəkilişlərdə köməkçi material kimi istifadə edilmək üçün Kəlbəcər, Xanlar və Samux rayonları üzrə əsirlikdən qayıdanlar barədə material hazırlanmışdır. Bakı şəhəri üzrə əsirlikdən azad edilmiş şəxslərin ünvanlarının dəqiqləşdirilməsi işi davam etdiril-

miş və 64 nəfərin ünvanı müəyyənləşdirilmişdir və s. 1992-ci ildə əsirlikdən azad olunmuş 2 nəfər şəxs müəyyən edilmiş və qeydiyyata alınmışdır.Əsir və girovluqdan azad olunmuş 4 nəfər vətəndaşla aidiyyatı üzrə söhbətlər aparılmış və müvafiq arayışlar tərtib edilmişdir.Əsirlikdən azad edilmiş 25 nəfərin yaşadığı ünvan dəqiqləşdirilmiş, onlardan 7 nəfərinin respublikadan kənarda yaşaması faktı müəyyənləşdirilmişdir.

Əsir və girovluqdan azad edilmiş 565 nəfər şəxslə bağlı MTN-nin rayon bölmələrindən alınmış əlavə informasiyalar, eləcə də 380 nəfərdən alınmış izahatlarda əks olunan əlavə məlumatlar kompyuterdə yaradılmış mövcud bazaya yerləşdirilmişdir. Ifadələri videolentə alınmış keçmiş əsir və girovların ifadələrinin əks olunduğu kassetaların nömrələri sonradan iş aparılması üçün əsir və girovluqdan azad olunmuş şəxslərlə bağlı həmin bazaya yerləşdirilmişdir. 2001-ci ildə əsir və girovluqda olan 8 vətəndaş Vətənə qaytarılmış, reabilitasiyaya cəlb olunmuşdur.

Henrix Bell fondu tərəfindən maliyyələşdirilən Beynəlxalq axtarış qrupunun üzvləri 2001-ci ilin may ayında Bakıda olarkən erməni əsirliyindən azad edilmiş onlarla şəxslər sosial və tibbi reabilitasiya məsələlərinə köməklik göstərilməsi ilə bağlı danışıqlar aparılmış və müəyyən yardım göstərilməsi barədə ilkin razılıq əldə edilmişdir. Həmin danışığın davamı olaraq 9-11 oktyabr 2001-ci ildə qrup üzvlərinin Bakıya növbəti səfəri zamanı MTN-in hospitalında təkrar tibbi müayinədən keçirilmiş 9 nəfər keçmiş əsirin xəstəlik vərəqələri tərtib olunub xaricdə müalicələrinə köməklik göstərilməsi məqsədi ilə qrupa təqdim edilmişdir. Onların xaricdə müalicəsi təşkil olunmuşdur.

Erməni girovluğunda qolunun bazu sümüyü kəsilmiş Əliyev Şövqü Xaqani oğlunun müalicəsinin təşkilini Türkiyənin iş adamı Mehmet Gözay öz üzərinə götürmüş və 2001-ci ildə müalicə başlanmışdır.

2002-ci ilin avqustunda Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin sorğusuna əsasən əsir və girovluqdan azad edilmiş şəxslərin sosial reabilitasiyasına yardım məqsədilə təşkil ediləcək kompyuter, sürücülük və s. kurslarda iştirak etmək üçün 10 nəfərlik siyahı hazırlanmışdır.

2003-cü ilin dekabr ayında, əvvəllər əsir və girovluqdan azad edilmiş vətəndaşların sayının dəqiqləşdirilməsi, reabilitasiya tədbirlərinin təşkili məqsədi ilə MTN-nin rayon bölmələrindən daxil olmuş 20 yeni siyahının araşdırılması nəticəsində əsir və girovluqdan azad edilmiş 9 nəfər, ƏKI 8-ci şöbədən daxil olmuş məlumata əsasən isə 1 nəfər, cəmi 10 nəfər müəyyənləşdirildi və adları müvafiq siyahıya salındı. 2003-cü ilin sonu, 2004-cü ilin sentyabrına qədərki müddətdə, əvvəllər azad edilmiş daha 12 şəxsin kimliyi müəyyən olundu. Əsir və girovluqdan azad edilmiş şəxslərdən müvafiq məlumatların toplanması məqsədi ilə Işçi qrupunun əmək daşlarının 2004-cü ildə Tovuz, Şəmkir və digər rayonlara ezamiyyəti təşkil edilərək əsir və girovluqdan qayıtmış 8 nəfərdən izahat, 3 ərizə alındı, 6 fotoşəkil əldə olundu. Gəncə, Beyləqan, Göyçay və Salyan rayonlarına ezamiyyət zamanı əsir və girovluqdan azad edilmiş 35 nəfərdən izahat alındı, 52 fotoşəkil çəkildi, 18 nəfərin videomüsahibəsi kassetləşdirildi. Itkin düşmüş şəxs kimi qeydiyyatdan keçən 12 nəfərin siyahısı Mərkəzi Ünvanlar Bürosunda yoxlanıldı. 2005-ci ildə sosial problemlərin həlli üçün müraciət etmiş erməni əsirliyindən azad edilmiş Cəfərov Mübariz Qara oğlu, Ağayeva Dürdanə Allahverdi qızı, Əliyev Cukkulu Şükür oğlu tərəfindən qaldırılan məsələlərə baxıldı. Işçi qrupunun müraciəti əsasında D.Ağayevaya Səhiyyə Nazirliyi tərəfindən tibbi xidmət göstərilmiş, o, göstərilən köməyə görə Işçi qrupuna minnətdarlığını bildirmişdir. 2006-cı ilin təkcə birinci yarısında isə 25 nəfərin sosial problemləri həll olunmuşdur.

## ƏDƏBİYYAT

1.Bizi əsirlikdən qurtarın. Bakı: Qismət, 2006, 678 s
2. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Azərbaycan Respublikası Dövlət Komissiyasının «Azərbaycan Respublikası ərazisində erməni təcavüzünün qurbanı olmuş qadınlar və uşaqlar haqqında» materiallar. // Dirçəliş – XXI əsr curnalı, 2002, № 54
3. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının materialları. .// Dirçəliş – XXI əsr jurnalı, 2002, № 50
4. Əziz Boran. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008, 223 s
5. Xocalı faciəsi beynəlxalq cinayət olaraq Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı məqsədyönlü soyqırım siyasətinin tərkib hissəsidir. AMEA İnsan Hüquqları İnstitutu Ekspertlər Şurasının yekun sənədi.// Dirçəliş – XXI əsr jurnalı, 2002, № 48
6.Məhərrəmov V. Erməni əsirliyindən dönənlər. Bakı: Hərbi nəşriyyat, 2009, 135 s
7.Sultanov O. Xocalı soyqırımı əsrin faciəsidir. Bakı: ADPU-nun nəşri, 1998, 88 s
8.Zeynalov N. İki ay erməni əsirliyində. Bakı: Azərnəşr, 2000, 59 s
10.Рябцев В. «Карабахских узел». Этнонациональный конфликт в аспекте региональной геополитике. Ростов – на Дону: 1996, 274

МУСТАФАЕВА Г

## СОЦИАЛЬНАЯ РЕОБИЛИТАЦИЯ АЗЕРБАЙДЖАНСКИХ ГРАЖДАН ОСВОБОЖДЕННЫХ ОТ АРМЯНСКОГО ПЛЕНА ВО ВРЕМЯ КОНФЛИКТА АРМЕНИЯ – АЗЕРБАЙДЖАН, НАГОРНОГО КАРАБАХА

В статье освещается направлении работ связанное с социальной реабли тации азербайджанских граждан освобожденных от армянского плена

G. MUSTAFAEVA

## SOCİAL REABİLİTATİON OF THE CİTİZEN RESCUE FROM ARMENİAN OCCUPATİON DURİNQ ARMENİAN- AZERBAİJAN NAQORNİY KARABAQH CONFLİKT

This article deals with activity done in the direction of Azerbaiyan citizens from Armenian occupation

***Rəyçilər: t.e.d.O.B.Sultanov, t.e.d.A.M.Məmmədov.***